**Çilənay Ramiz qızı HACIMAHMUDOVA**
Western Caspian Universty Magistr
E-mail: chacimahmudova@gmail.com

# MÜASİR DÖVRDƏ DAVAMLI VƏ DAYANIQLI İNKİŞAFIN ƏSAS İSTİQAMƏTLƏRİ

**Xülasə**

Bu məqalədə Azərbaycanın davamlı və dayanıqlı inkişafının hüquqi və iqtisadi nəzərdən istiqamətlərindən bəhs olunub. Davamlı və dayanıqlı inkişaf barədə kifayət qədər məlumat yazılmışdır. Azərbaycanın keçmiş dövrlərdən müasir dövrə qədər olan inkişaf istiqamətləri göstərilmişdir. Məqalədə Azərbaycanın xarici ölkərlə də davamlı inkişafından nümunələr əks olunmuşdur. İşin yazılması zamanı iqtisadi mühit, müasir dövrün ekoloji problemləri,həmçinin Azərbaycan və digər dövlətlərin davamlı və dayanıqlı inkişafa töhvələrindən bəhs edilmişdir. Ətraf mühitin və resursların istifadəsinə təsir edən dayanıqlı inkişaf göstəriciləri qiymətləndirilmişdir. Bölgələrdə və fərdi ölkələrdə ətraf mühitin vəziyyətinə təsiri qiymətləndirilmişdir. Məqalə Ali Təhsil Müəssisələrinin iqtisadiyyat sahəsində oxuyanlar üçün nəzərdə tutulmuşdur.

**Açar sözlər:** Davamlı inkişaf, dayanıqlı inkişaf,milli sahibkarlıq, innovasiya və investisiya

**JEL:** G21
**UOT**: 331
**DOI:** https://doi.org/ 10.54414/JYLZ3405

**Giriş**

Bildiyimiz kimi dünya təsərrüfatı XIX əsrin sonları XX əsrin əvvəlllərində daha da inkişaf etməyə başlamışdır. Bu illər ərzində kapital və istehsal təmərküzləşməsindən meydana gələn inhisarlar formalaşmışdır. Belə ki, bank və sənaye kapitalının qovuşmasından maliyyə oliqarxiyası və maliyyə kapitalı yaranmışdır. Onu da qeyd etməliyik ki, kapital ixracı əmtəə ixracından fərqli olaraq daha çox əhəmiyyət kəsb edirdi. Bu cür sürətli inkişaf maşınlı sənayenin sahə strukturunda daha çox dəyişikliyə səbəb olmuşdur. ABŞ və Almaniya bu dövrlərdə sürətli inkişafı ilə seçilən dövlətlərdən olmuşdur. ABŞ dünyada birinci sənaye dövlətinə çevrilmişdi. Həmçinin sənayenin ümumi istehsalına görə Fransa və İngiltərəni də qabaqlayırdı.

Dünya ölkələrinin subyektlərini beynəlxalq təşkilatlar, dünyada olan ayrı-ayrı dövlətlər və transmilli təşkilatlar təşkil edir. Müasir dövrümüzə nəzər salsaq görərik ki, dünya ölkələrinin əsas məqsədi fəal surətdə dünya təsərrüfat sisteminə qoşulmaqla özlərinin müvafiq ehtiyatları olmadan da cəmiyyətin tələbatını dolğun surətdə ödəmək istəyirlər. Həmçinin yeni texnika və texnologiyalara yiyələnmək, idarəçilik təsərrüfatı qazanmaq və mütərəqqi təsərüfatçılıq qazanmaq istəyirlər.

Hazırkı zamanın tələblərini ödəyən, həmçinin gələcək nəsillərin də öz tələbatlarını ödəməyi təhlükə altında qoymayan inkişaf dayanıqlı inkişaf adlanır. Həmçinin dayanıqlı inkişaf digər ölkələrin də milli suverentetine təhlükə yaratmayan inkişaf hesab olunur. Dayanıqlı inkişaf əsas iki anlayışla izah olunur:

1. Tələbatlar anlayışı—kasıb əhali təbəqə-sinin mövcudluğu üçün lazım olan bütün tələbatlar hesab olunur.
2. Məhdudiyyətlər anlayışı —texnologi-yaların vəziyyəti və cəmiyyətin təşkili, ətraf mühitin indiki və gələcək tələbatlarını ödəmək qabiliyyətinə qoyulan şərtlər.

Ümumiyyətlə dayanıqlı inkişaf anlayış ilk dəfə olaraq KOSR-un “Bizim ümumi gələcəyimiz” məruzəsində yaranmışdır.

**Davamlı və dayanıqlı inkişaf, milli inkişaf və onların inkişaf istiqamətləri**

Müasir dövrümüzdə dövlətlərə tarixi varisliyi ilə yox, onun iqtisadi inkişafı,inkişaf perspektivləri əsas mahiyyət kəsb edir. Belə ki, sosial-iqtisadi anlayışa görə iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.

Azərbaycanın tarixinə nəzər salsaq görərik ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra ona qalan minimum dərəcə ilə çalışan texnologiyalar,

istehsal avadanlıqları nəticəsində alınan məhsullar bazarda alıcı tapmaqda aciz idi. Belə bir vəziyyətdə ixrac potensialından söhbət belə gedə bilməzdi. Yenicə dünya arenasına qədəm qoyan bir dövlət olaraq digər dövlətlərin gözündə zəif, torpaqları işğal altında olan, bir milyondan çox qaçqın və məcburi köçkünü olan dövlət kimi xarakterizə olunurdu.[1,səh 27]

Lakin 1994-cü il 20 sentyabr "Əsrin müqaviləsi" nin imzalanması nəticəsində dünya dövlətləri içərisində sayılıb-seçilən,iqtisadi gücə malik olan dövlətlərin Azərbaycana maraq göstərməsi və 20 illik Azərbaycanın xeyrinə olan şərtlərlə müqavilə bağlaması ən mühüm nailiyyət olmuşdur.

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi yanında yaradılan Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun yaradılması və düzgün neft,qaz müqavilələrinin icrası nəticəsində və mühüm layihələrin həyata keçirilməsinə yönəldilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasınım Dövlət Neft Fondunun yaradılması mühüm əhəmiyyət kəsb etmişdir. Beləliklə də,2000-ci illərdən başlayaraq milli sahibkarlığın inkişaf etməsi və yeni sahələrin həmçinin texnika və texnologiyaların inkişafı,yeni işçi qüvvəsinin gücü Ümumi Daxili Məhsulun həcminin artımına səbəb oldu.

Milli sahibkarlara Azərbaycanın iqtisadi inkişafının sürətli hərəkəti bu təbəqənin qısa müddətdə formalaşmasını mümkün etdi. Bəzi iqtisadi faktorlara nəzər salsaq bunu müşahidə edə bilərik. Bunlara misal olaraq, Dövlət Neft Fondunun yaradılması,Sahibkarlığa Kömək Milli Fomdunun təsis edilməsi, həmçinin Vergi Məcəlləsinin qəbulu hansı ki,Avropa ekspertlə-rinin müsbət rəyini almışdır. Müasir dövrümüzdə Azərbaycan neft sektorundan gələn gəlirləri qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün yatırım etmişdir.[2,səh 32]

Hər bir dövlət hər zaman vergi və rüsumlardan azadetmə və ya onların ödənişi üçün möhlət verilməsini istəmişlərdir. Lakin iqtisadi vəziyyətə birbaşa təsir edən amillərə istehlakçı tələbinin öyrənilməsi, rəqabət mühitinin yaradılması, daxili və xarici bazarların axtarılması və öyrənilməsi bilavasitə təsir göstərir.

Dayanıqlı inkişafın qiymətləndirilməsi göstəricilər vasitəsilə həyata keçirilir. Dayanıqlı inkişafın obyektiv qiymətləndirilməsində ənənəvi iqtisadi göstəricilər kifayət deyildir. Ona görə ki, sistemin sabitliyi barədə fikir bildirməyə imkan vermir. Ümumiyyətlə göstəricilərin əsaslandırıl-ması və seçimi metodik baxımdan və metodoloji cəhətdən çox mürəkkəb bir proses hesab olunur.

BMT və Dünya Bankının strukturları miqyasında davamlılığın birləşdirilmiş göstəri-cisinin qurulmasına dair vahid yanaşma obyektiv və tam şəkildə yerinə yetirilir. BMT-nin Baş Assambleya beynəlxalq ekoloji əməkdaşlığın əsas təşkili sistemidir. Dünya ölkələrinin əsas qarşısına qoyduğu məqsədlərə ortaya çıxan problemləri proqnozlaşdırmaq,qlobal mühitin vəziyyətini qiymətləndirmək və onları erkən xəbərdar etməkdən ibarətdir.

Davamlı və dayanıqlı inkişafda iqtisadiyyatın əsas qollarından biri də milli inkişafdır. Milli inkişaf, ölkənin iqtisadi, ekoloji, sosial və siyasi həyatında dəyişiklikləri maksimum dərəcədə həyata keçirməyə imkan verir. Bunun üçün də hər bir ölkə öz siyasi, iqtisadi və coğrafı şəraitini nəzərə alaraq inkişaf strategiyalarını müəyyən etməlidir. Ümumiyyətlə, milli inkişafın əsas məqsədinə nəzər salsaq görərik ki,məşğulluğun artırılması, insan kapitalının inkişafı, rifahın yüksəldilməsi və iqtisadiyyatın şaxələndirilməsi onun qarşısında duran əsas vəzifələrdəndir.

Milli inkişafın müxtəlif sahələr üzrə strateji istiqamətləri yayılmışdır. Bu istiqamətləri aşağıdakı kimi sıralaya bilərik:

1. İnsan kapitalının inkişafı: Milli inkişafın bu sahə üzrə əsas aspektləri təhsil və səhiyyə sahələrində islahatların aparılması, işçi qüvvəsinin bacarıqlarının artırılmasıdır.
2. İqtisadi şaxələndirmə: Qlobal iqtisadi böhranlara qarşı dayanıqlı iqtisadiyyatın qurulması üçün iqtisadiyyatın yalnız bir sahə üzrə deyil, müxxtəlif bir neçə sahəyə ayrılması lazımdır. Məsələn, sənaye, xidmət sahələri, kənd təsərrüfatı və.s.
3. Ətraf mühitin qorunması və resursların səmərəli istifadəsi: Ətraf mühitin qorunması və ekoloji dayanıqlı inkişafın təmin edilməsi üçün qanunvericilik və siyasətlərin gücləndirilməsi vacibdir. Bərpa olunan enerji mənbələrindən istifadə,təkrar emal və ətraf mühitin qorunması bu sahənin əsas məqsədlərindəndir.
4. Regional və beynəlxalq əməkdaşlıq: Ticarət əlaqələri, regional inkişaf layihələri və beynəlxalq əməkdaşlıq olmazsa, milli inkişaf yalnız daxili resurslara dayanaraq həyata keçirilə

bilməz. Həmçinin inkişaf etməkdə olan ölkələrin inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə edərək bazara girişi özünü göstərir.

Keçmişə nəzər salsaq görərik ki, davamlı və dayanıqlı inkişafın əsas prinsipləri keçmiş dövrlərə söykənir. Belə ki, BMT-nin 1987-ci il "Brundtland Komissiyasının" hesabatında nəşr olunmuşdur. Üç əsas prinsip vardır ki, bu məqsədlərə çatmaq üçün çox əhəmiyyətlidir və sosial, iqtisadi və ekoloji aspektləri əhatə edir.

1. İqtisadi dayanıqlılıq: İqtisadi resursların səmərəli istifadəsi, iqtisadi inkişafın uzunmüddətli və bərabər paylanması bu prinsip əsasında təşkil olunur. Bu sahənin əsas məqsədi gələcəkdəki iqtisadi böhranların qarşısını almaqla düzgün iqtisadi siyasətin həyata keçirilməsidir.

2. Ekoloji dayanıqlılıq: Bu sahədə əsas məqsəd ekosistemlərin sağlamlığının təmin edilməsi və karbon izlərinin azaldılmasıdır. Bunun üçün ətraf mühiti mühafizə etmək, təbii resursların qorunmaq və iqlim dəyişikliklərinin qarşısını almaq lazımdır.

3. Sosial dayanıqlılıq: Bu sahədə önəmli yeri səhiyyəyə, ictimai xidmətlərə və təhsilə çıxışın artırılması yer tutur. İnklüziv inkişafın təmin edilməsi, sosial bərabərlik və ədalət sosial dayanıqlılığın əsasını təşkil edir.

Milli inkişaf strategiyaları davamlı və dayanıqlı inkişafla bağlı və dünya miqyasında inkişaf tendensiyalarını izləməlidir. Müasir dövrümüzdə əsas inkişaf istiqamətləri ön plana çıxır. Bu istiqamətlərə aşağıdakıları misal göstər bilərik:

1) Bərabərsizliklə mübarizə və sosial ədalət: Zəif təbəqələrin həyat səviyyəsinin yüksəldilməsi, sosial bərabərliyin və ədalətin təmin olunması daha səmərəli və müasir inkişaf modeli ilə təmin olunmalıdır.

2) İqlim dəyişikliyinə qarşı mübarizə: Ekoloji fəlakətlərin qarşısını almaq və qlobal istiləşməyə qarşı mübarizə aparmaq məqsədilə, ölkələr bərpa olunan enerji resurslarına keçid etməlidirlər. Həmçinin, ölkələr ekoloji innovasiyalara yönəlməlidir. Bu proseslər eyni zamanda, iqtisadi dayanıqlılığın təmin olunması üçün vacibdir.

3) Texnoloji innovasiyalar və rəqəmsal transformasiya: Yeni iqtisadi modellərin tətbiqi, yüksək texnologiyaların tətbiqi və rəqəmsal infrastrukturun inkişafı ölkələrin iqtisadiyyatını daha dayanıqlı edəcəkdir. Bunlar eyni zamanda iqtisadiyyatın müasir trendlərə uyğunlaşmasına və yeni iş yerlərinin yaradılmasına səbəb olacaqdır.

4) Beynəlxalq inkişaf təşəbbüsləri və kooperasiya: Bu sahə əsasən elmi tədqiqatların təşviqi, ölkələr arasında təcrübə mübadiləsi və investisiya axınının artırılması üçün vacib addımlardandır. Çünki, davamlı və dayanıqlı inkişafın məqsədinə çatmaq üçün beynəlxalq əməkdaşlıq vacibdir.

**Nəticə**

Ümumilikdə nəticə olaraq deyə bilərik ki, dayanıqlı və davamlı inkişafın müasir dövr üçün əhəmiyyəti çox böyükdür. Belə ki, müxtəlif ölkələrin mütəxəssisləri və alimləri tövsiyələr vermişdir. İqtisadiyyatın, ətraf mühitin vəziyyətində olan dəyişiklikləri davamlı inkişaf göstəricilərinin vasitəsilə problemin keyfiyyət və kəmiyyət vəziyyətini qiymətləndirir və təsvirini verir.

Aparılan tədqiqat nəticəsində bir sıra təkliflər formalaşmışdır. Onlara aşağıdakıları misal göstərə bilərik:

1) Ətraf mühitin mühafizəsinin dayanıqlı inkişaf konsepsiyasındakı səmərəli təşkili, əhalinin sağlamlığına dəyən zərərin minimuma endirilməsi üçün məlumat xarakterli bukletlər və braşor, KİV-də məsələyə xüsusi yer verilməsi həyata keçirilə bilər.

2) Ölkə əhalisinin rifah səviyyəsinin yüksəldilməsinə, həmçinin ölkənin biristiqamətli deyil, çoxşaxəli inkişaf etməsi üçün şərait yaratmaq lazımdır.

3) Neft və qaz sektoruyla yanaşı, qeyri-neft sektorunun da inkişaf etdirilməsi vacibdir.

4) Yeni iş yerlərinin açılması və alternativ enerji mənbələrindən istifadə, mövcud milli proqramın və mütərəqqi milli qanunvericilik bazasının genişləndirilməsi və qəbul edilməsi məqsədə uyğundur.

## ƏDƏBİYYAT SİYAHISI:

1. "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı.

2. Abbasov S.H. "Texnologiyalar və yeniliklərin idarə edilməsi" 201

3. Azərbaycan sənayesi: statistik göstəriciləri DSK. B. 2017. 344 səh

4. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, 13 Yanvar 1995.

5. Ələkbərov U.K. “Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları”.Ali Məktəblər üçün dərslik.ƏBakı,Təhsil”, 2013, 224 səh.
6. Göyçaylı Ş.Y.,Mikayılov N.K. Ətraf mühiti mühafizə və təbii ehtiyatlardan Səmərəli istifadə.Bakı,Hərbi nəşriyyat.1996.
7. Ələkbərov U.K. “Azərbaycan Respublikasında davamlı inkişafın planlaşdırılması və idarə ediməsi : beynəlxalq təşkilatların qiymətləndirilmələri”,Dövlət idarəçiliyi nəzəriyyə və təcrübə ,Bakı,2014,272 s.
8. Mustafayev Q.T. Ekoloji hüquq.Bakı,Futuroloq 1999.

**Chilanay Ramiz gizi HAJİMAHMUDOVA**
Western Caspian University Master
E-mail: chacimahmudova@gmail.com

## THE MAIN DIRECTIONS OF SUSTAINABLE AND SUSTAINABLE DEVELOPMENT IN THE MODERN PERIOD

### Abstract

In this article, the legal and economic aspects of the sustainable and sustainable development of Azerbaijan have been discussed. Enough information has been written about sustainable and sustainable development. The directions of development of Azerbaijan from past times to modern times are indicated. Examples of Azerbaijan’s continuous development with foreign countries are reflected in the article. During the writing of the work, the economic environment, environmental problems of the modern era, as well as the contributions of Azerbaijan and other countries to sustainable and sustainable development were discussed. Sustainable development indicators affecting the environment and resource use were assessed. The impact on the state of the environment in regions and individual countries has been assessed. The article is intended for those who study in the field of economics of Higher Education Institutions.

**Key words**: Sustainable development, sustainable development, national entrepreneurship, innovation and investment

**Чиланай Рамиз кызы ХАДЖИМАХМУДОВА**
Western Caspian University магистрант

## ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ УСТОЙЧИВОГО И УСТОЙЧИВОГО РАЗВИТИЯ В СОВРЕМЕННЫЙ ПЕРИОД

### Резюме

В этой статье обсуждаются правовые и экономические аспекты устойчивого и устойчивого развития Азербайджана. Об устойчивом и устойчивом развитии написано достаточно информации. Обозначены направления развития Азербайджана от прошлых времен до современности. В статье отражены примеры непрерывного развития Азербайджана с зарубежными странами. В ходе написания работы обсуждались экономическая среда, экологические проблемы современной эпохи, а также вклад Азербайджана и других стран в устойчивое и устойчивое развитие. Были оценены показатели устойчивого развития, влияющие на окружающую среду и использование ресурсов. Оценено влияние на состояние окружающей среды в регионах и отдельных странах. Статья предназначена для тех, кто обучается по направлению «Экономика» в высших учебных заведениях.

**Ключевые слова:** Устойчивое развитие, устойчивое развитие, национальное предпринимательство, инновации и инвестиции.